**Loğman İmran oğlu Abdullayev**

**UOT: 331.108.4:331.434; JEL: E24; F66; H75; J24.**

# İnsan kapitalından istifadənin modelləşdirilməsinə yanaşmaların xüsusiyyətləri və qiymətləndirilməsi

***Xülasə***

*Məqalədə insan kapitalından istifadənin modelləşdirilməsinə yanaşmaların xüsusiyyətləri və qiymətləndirilməsi tədqiq olunmuşdur. Bunun üçün qlobal iqtisadi çağırışlar şəraitində insan kapitalının formalaşması və inkişafı prosesləri araşdırılmışdır. İnsan kapitalının formalaşdırılması və inkişaf etdirilməsinin modelləşdirilməsinin vacibliyi bildirilmişdir. İnsan kapitalının müasir xüsusiyyətləri nəzərə alınmaqla, onun əsas komponentlərinin dayanıqlı inkişafı üçün əlverişli şəraitin yaradılması və müvafiq infrastrukturun təşkilinə strateji yanaşmalar təmin olunması əsaslandırılmışdır. İnsan kapitalından daha səmərəli istifadəyə dair dünya təcrübəsinin dərindən öyrənilməsi və modelləşdirilməsi diqqət mərkəzində saxlanılmışdır. İnsan kapitalının formalaşmasında həlledici elementlər sistemləşdirilmiş və ümumiləşdirilmişdir. İnsan kapitalından istifadənin səmərəli təşkili problemlərinə yanaşmaların xüsusiyyətlərinin obyektiv qiymətləndirilməsinin vacibliyi bildirilmişdir. Hazırkı şəraitdə insan kapitalının formalaşması və inkişaf etdirilməsi tədbirlərinin genişləndirilməsinə diqqət yönəldilmişdir. İnsan kapitalından istifadəyə təsir edən əhəmiyyətli amillərin nəzərə alınmasının və qiymətləndirilməsinin sistemli şəkildə təşkili məqsədəuyğun sayılmışdır. Azərbaycanda insan kapitalının formalaşması və ondan istifadə olunmasında əsas rol oynayan göstəricilər təhlil olunmuşdur. İnsan kapitalından istifadənin təkmilləşdirilməsi istiqamətində dövlət siyasətinin əsas mexanizmlərinin yenilənməsinin və təkmilləşdirilməsinin zəruriliyi əsaslandırmışdır. İnsan kapitalından istifadənin modelləşdirilməsinə yanaşmaların xüsusiyyətləri və qiymətləndirilməsi üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.*

***Açar sözlər:*** *insan kapitalı, insan kapitalının modelləşdirilməsi, insan kapitalının xüsusiyyətləri, insan kapitalının formalaşması, insan kapitalının qiymətləndirilməsi, insan kapitalının inkişaf etdirilməsi, insan kapitalından istifadənin müasir aspektləri, insan kapitalının inkişaf perspektivləri.*



## Giriş

İnsan kapitalından istifadənin modelləşdirilməsi və bununla bağlı məsələlər kifayət qədər optimal yanaşmaları, həmçinin işlək mexanizmləri tələb edir. Dünya təcrübəsindən yanaşsaq, hələ XX əsrin ortalarından başlayaraq, texnologiyaların sürətli inkişafına baxmayaraq, bu proseslərdə insan amili önəmli olaraq qiymətləndirilmişdir. Bütün hallarda insan amilinin ön plana çıxmasının əsas səbəbi – yaradılan istənilən maddi nemətlərin, yüksək texnologiyaların, mürəkkəb avadanlıqların – hamısının bir yerdə yaradıcısı məhz insanın olmasıdır, insan düşüncəsidir, insan məhsuludur, insan beyninin düşünərək formalaşdırdığı, mənimsədiyi, hazırladığı və həyata keçirdiyi ideyaların təcəssümüdür, təzahürüdür. İqtisadi inkişaf proseslərinin səmərəliliyinin təmin olunması məhz hazırlanan və reallaşdırılan konsepsiyalardan, dövlət proqramlarından və tədbirlər kompleksindən ibarətdir [5]. Bunların mükəmməl hazırlanması və əsaslandırılması isə yüksək ixtisaslı menecerlərdən, peşəkar idarəçilərdən və rəhbərlərdən bilavasitə asılıdır. İnsan təxəyyülü və düşüncəsi uzunmüddətli dövr üçün planlaşdırmalar və proqnozlaşdırmalar aparmağa qadirdir. Lakin, bundan ötrü insan

*©Loğman İmran oğlu Abdullayev i.f.d., Sumqayıt Dövlət Universiteti. E-mail: loqman.2005@mail.ru*
*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

təxəyyülü inkişaf etməli və onun düşüncə tərzi yüksək səviyyədə formalaşmalı, bilikləri, mütərəqqi dünya təcrübəsini mənimsəməli, onları süzgəcdən keçirməyi bacarmalı, təhlil və müqayisəli təhlil etməyin ən səmərəli yollarını öyrənməlidir. Belə olduğu təqdirdə, qəbul edilən qərarlar və reallaşdırılan ideyalar, düşüncələr daha çox səmərəlilik səviyyəsinə malik olur.

İnsan kapitalının formalaşması və ondan istifadənin modelləşdirilməsinə yanaşmaların maksimum optimal forma və metodları işlənib hazırlanmalı və həmin istiqamətlər üzrə güclü dövlət siyasəti təmin edilməlidir. Dövlət tərəfindən ölkədə insan kapitalından istifadənin səmərəli təşkili istiqamətində yaxın və uzaq dövrlərin strateji vəzifələri nəzərə alınmaqla, fəaliyyət strategiyaları və bunları özündə əks etdirən dövlət siyasəti, onun əsas mexanizmləri müəyyənləşdirilməlidir [13]. Qlobal iqtisadi çağırışlar şəraitində insan kapitalından istifadənin yeni yanaşmaları və mexanizmləri olmalı, insanların bacarıq və istedadlarının reallaşdırılması üçün tələb olunan tədbirlər həyata keçirilməli, müvafiq infrastruktur formalaşdırılmalı, bunlarla yanaşı insan kapitalından istifadə edilməsinin əsaslandırılmış idarəetmə mexanizmləri olmalıdır. Cəmiyyətdə və iqtisadiyyatda tarazlı inkişafın təmin olunması, məhsuldar fəaliyyət mexanizmlərinin hazırlanaraq tətbiq edilməsi, cəmiyyətin inkişafına təsir edən əsas amillərin dəyərləndirilməsi, insanların mənəvi zənginliklərinin formalaşdırılmasına müvafiq şəraitin yaradılması, onların istedad və bacarıqlarının realizə edilməsinə tələb olunan fəaliyyət mühitinin yaradılması təmin edilməlidir [4]. Bundan əlavə, insan kapitalından istifadənin spesifik cəhətləri, ondan istifadə mexanizmlərinin mənfi və müsbət amilləri, onların təkmilləşdirilməsi və ya tamamilə yenilənməsi problemləri kompleks şəkildə baxılaraq daha münasib fəaliyyət formaları metodları seçilməli, praktiki alətlər müəyyənləşdirilməlidir. Həyat şəraitinin və ümumilikdə sosial infrastrukturun insan kapitalına təsiri məsələləri dərindən araşdırılmalı və insan kapitalından istifadə proseslərində ortaya çıxan problemlərin mahiyyətinin öyrənilməsi təmin olunmalı və bunlara uyğun şəkildə zəruri tədbirlər həyata keçirilməlidir.



**İnsan kapitalından istifadənin modelləşdirilməsinin mühüm aspektləri**

Müasir dövrdə insan kapitalından istifadənin modelləşdirilməsi və bununla bağlı daha əsaslandırılmış yanaşmaların ortaya qoyulması aktuallığı ilə xeyli fərqlənir [8]. Ölkədə iqtisadi inkişaf proseslərinin səmərəli şəkildə inkişaf etdirilməsi və bununla bağlı nəzərdə tutulan tədbirlərin icraçısı olan məsul şəxslərin-menecerlərin-insan kapitalının yeniliyə, novatorluğa, yaradıcı vərdişləri daha tez mənimsəməyə, məhsuldar çalışmağa istiqamətləndirmək və onların motivasiyasını artırmaq vacib şərtlərdəndir [7]. Ölkənin rəqabət qabiliyyətinin gücləndirilməsi və iqtisadi inkişaf proseslərinin dayanıqlılığının təmin olunmasında mühüm amilllər kimi elm və texnologiyaların inkişaf etdirilməsi, innovasiyaların və bunlarla bağlı ideyaların öyrənilməsi, hazırlanması, mənimsənilməsi və istehsal proseslərinə tətbiq edilməsinin təşkili önəmli əhəmiyyət kəsb edir [6]. İqtisadi inkişaf proseslərinin dünyəvi yanaşmalarından çıxış etsək, bu proseslərdə insanın roluna diqqət versək, qeyd etmək mümkündür ki, bütün proseslərdə insan amili strateji əhəmiyyət kəsb edir və dünyada toplanmış təcrübədə bunlar öz təzahürünü tapmışdır. Məhz keçən əsrin 60-70-ci illərindən başlayaraq ABŞ və Yaponiyada, o cümlədən bir sıra digər iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə insan amilinin ən yüksək səviyyədə dəyərləndirilməsi, peşəkarlıq səviyyəsinin artırılmasına daha çox diqqətin yönəldilməsi, təhsil və səhiyyə sahələrinə iri investisiyaların yatırılması, əsaslı vəsait qoyuluşlarının artırılması, insanların həyat şəraitinin yaxşılaşdırılması şəraitində sistemli və ardıcıl tədbirlərin görülməsi, sosial infrastrukturun gücləndirilməsi, insanların gəlirlərinin artırılması üçün münbit şəraitin yaradılması, sahibkarlıq və biznes subyektlərinin cəmiyyətin və iqtisadiyyatın bütün sahələrində sağlam rəqabət mühitində fəaliyyət göstərməsi, biznesin inkişafına mane olan halların aradan qaldırılması, ölkədə sahibkarlığın inkişafı ilə əlaqədar əlavə tədbirlərin görülməsi nəticəsində

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

insan kapitalından istifadənin daha səmərəli modelləşdirilməsi və istifadə edilməsi mümkün olmuşdur. Bu isə öz növbəsində həmin ölkələrin daha yüksək sürətlə inkişaf etməsinə, iqtisadi güclərinin artırılmasına, yeni texnologiyaların mənimsənilməsinə, innovasiya infrastrukturunun yaradılmasına, müasir iqtisadi mexanizmlərin və fəaliyyət sahələrinin, o cümlədən texnoparkların, texnopolislərin, sənaye və innovasiya parklarının, elmi-texniki parkların təşkil olunmasına əlavə stimullar verilmişdir.

Dünya iqtisadiyyatında resursların balanslaşdırılması və yeni resurs mənbələrinin formalaşdırılması, mənimsənilməsi mürəkkəb problemlərdən biri kimi qalmaqdadır [9]. Buna görə də əksər dünya ölkələrində texnoloji səviyyənin inkişaf etdirilməsi hesabına məhsuldarlığın artırılması və iqtisadi artımın təmin olunması vacib şərtlərdəndir. İqtisadiyyatın şaxələndirilməsi və inkişaf etdirilməsi üçün tələb olunan məsələlərdən biri də ortaya çıxan və aşkarlanan problemlərə konseptual yanaşmaların təmin olunmasıdır [12]. Bu sırada insan amili mühüm komponent kimi qiymətləndirilir və buna görə də qlobal və strateji əhəmiyyət kəsb edən məsələlərə konseptual yanaşmaların formalaşdırılması xüsusilə önəmlidir [14]. Eyni zamanda, daha çox diqqət çəkən mürəkkəb problemlərdən biri də insan kapitalından istifadənin daha məhsuldar və səmərəli təşkili, ümumilikdə insan kapitalının formalaşması və inkişaf etdirilməsi konsepsiyasının hər bir ölkənin milli iqtisadi maraqlarına uyğun şəkildə təmin edilməsi, iqtisadiyyatın və cəmiyyətin müxtəlif sahələrində insan kapitalından istifadənin dövrün tələbinə uyğun formada modelləşdirilməsidir [10]. Bu baxımdan, dövlət tərəfindən kompleks və sistemli tədbirlərin həyata keçirilməsi, mövcud fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi və yenilənməsi təmin olunmalıdır. Bundan əlavə, insan kapitalının formalaşdırılması, inkişaf etdirilməsi və bu kapitalın istifadəsinin maksimum səmərəli modelləşdirilməsi siyasəti olmalı, həyata keçirilməsi mexanizmləri tətbiq edilməlidir. İnsan kapitalı özündə insanın fəaliyyət gücü daxilində topladığı bacarıqlar və ehtiyatları birləşdirir [11]. İnsan kapitalından istifadənin modelləşdirilməsinə yanaşmaların ümumiləşdirilməsi və sistemləşdirilməsi nöqteyi-nəzərindən onların xüsusiyyətlərini Şəkil 1-dəki kimi vermişik. Şəkil 1-dən yanaşsaq, həmçinin insan kapitalından istifadənin əhəmiyyətli səviyyədə özünü biruzə verdiyi modelləşdirmə elementlərindən və yanaşmalarından, onların xüsusiyyətlərindən baxsaq, bu xüsusiyyətlərin sırasında insan kapitalının formalaşdırılması və inkişaf etməsi proseslərinin mürəkkəbliyi və onların reallaşdırılmasına uzun illərin lazım gəldiyi, insan kapitalının istifadənin modelləşdirilməsində dövlətin optimal siyasətinin və daha işlək mexanizmlərinin olmasını, insan kapitalının istifadə elementlərinin çoxfunksiyalı təsir dairəsinin obyektiv qiymətləndirilməsi, əvvəldə bildirdiyimiz kimi ölkədə təhsilin inkişaf səviyyəsi və səhiyyə sisteminin inkişafının müasir tələblər çərçivəsinə qaldırılması insan kapitalının inkişafı ilə bağlı cəmiyyətdə və iqtisadiyyatda önəmli addımların atılması, makroiqtisadi sabitliyin və əhalinin gəlirliliyinin və dianmikliyinin insan kapitalının formalaşdırılmasının birbaşa təsirinin qiymətləndirilməsinin, iqtisadi inkişaf proseslərində, sahibkarlıq və biznes subyektlərində şəffaflığın artırlması, əhalini və cəmiyyəti narahat edən problemlərin dəyərləndirilməsi və nəzərə alınması daha çox fərqlənirlər.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Şəkil 1.**

**İnsan kapitalından istifadənin modelləşdirilməsinə yanaşmaların xüsusiyyətlərinin təxmini sxemi**






**Azərbaycanda insan kapitalından istifadənin modelləşdirilməsinin müasir vəziyyətinin qiymətləndirilməsi**

Azərbaycanda insan kapitalından istifadənin modelləşdirilməsi və bununla bağlı real vəziyyətin qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Hazırda ölkəmizdə iqtisadi inkişaf konsepsiyaları, strateji yol xəritələri çərçivəsində iqtisadi islahatların dərinləşdirilməsi və struktur islahatlarının sürətləndirilməsi prosesləri gedir [2; 3] . Bu baxımdan, insan kapitalından istifadənin mövcud vəziyyətinin obyektiv təhlil olunması və qiymətləndirilməsi vacibdir. İnsan kapitalından istifadənin modelləşdirilməsində yanaşmaların optimal olaraq müəyyənləşdirilməsi və ölkənin iqtisadi inkişaf xüsusiyyətləri nəzərə alınmaqla, bu kapitaldan səmərəli istifadə edilməsi özünü milli məhsulun formalaşdırılmasında və artımında təzahür edir. Bu göstəricinin daha obyektiv baxılması və qiymətləndirilməsi üçün adambaşına düşən ÜDM-ın həcminə baxmağı məqsədəuyğun saymışıq. Şəkil 1-də Azərbaycanda 2000-2018-ci illər üzrə adambaşına düşən ÜDM-in həcmi verilmişdir. Şəkil 2-ə nəzər saldıqda, görmək mümkündür ki, 2000-2018-ci illər ərzində ölkəmizdə milli məhsulun formalaşdırılmasında və ÜDM-in artım dinamikasında önəmli nəticələr əldə edilmişdir. Belə ki, bu dövr ərzində ölkədə adambaşına düşən ÜDM-in həcmi 13,7 dəfə artmış 2018-ci ildə 8126,2 manat təşkil etmişdir. Amma, bu göstərici son illərdə, yəni 2015-ci ildən başlayaraq nisbətən aşağı düşmüşdür, lakin artım tempi 2016-cı ildə bərpa olunmuşdur. Dollar ekvivalentində isə əgər 2014-cü ildə ölkəmizdə adambaşına düşən ÜDM-ın həcmi 8 min ABŞ dollarından çox olmuşdursa, bu göstərici 2018-ci ildə cəmisi 4800 dollar təşkil etmişdir. Şübhəsiz, ölkədə milli valyutanın – manatın ikiqat devalvasiyası burada özünü mənfi tərəfdən göstərmişdir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Şəkil 2.**

**Azərbaycanda 2000-2018-ci illərdə adambaşına düşən ÜDM-in dinamikası (manat)**




Mənbə: ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır - https://www.stat.gov.az.

Bütün bu amillər baxımından, insan kapitalının formalaşması və inkişaf etməsi proseslərinin qlobal təsirlər, maliyyə və iqtisadi böhranlar şəraitində daha konseptual şəkildə baxılması, problemlərin dərindən öyrənilməsi və səmərəli modelləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Əmlakın və əmanətlərin dəyərinin əhəmiyyətli səviyyədə itirilməsi, əmək haqlarının real dəyərinin iki dəfədən çox aşağı düşməsi insanların əhvali-rühiyyəsinə mənfi təsir göstərməsi gözlənilən haldır, amma, bunların aradan qaldırılması tədbirləri və dövlət dəstəyi mexanizmləri də adekvat olmalı, insanların vəziyyətinin və sosial rifahının balanslaşdırılmasına imkan verməli və insan kapitalının inkişafını məhdudlaşdırmamalıdır. Devalvasiyadan sonra ölkəmizdə onun mənfi təsirinin aradan qaldırılması istiqamətində önəmli addımlar atılmışdır, müxtəlif kompensasiya xarakterli tədbirlər görülmüş, sosial paket formasında əhalinin həyat səviyyəsinin və sosial müdafiəsinin gücləndirilməsi mexanizmləri hazırlanmış və reallaşdırılmışdır. Milli və xarici valyutada uzun illər ərzində üst-üstə yığılmış problemli kreditlərin həlli istiqamətində dövlət vətəndaşlarımızın və həm də bankların bu problemlərdən yaxa qurtarması mexanizmini hazırlamağa müvəffəq olmuş, əhalinin banklara borclarının bir hissəsi kompensasiya edilmiş və nəticədə cəmiyyətdə, həm də iqtisadiyyatda müsbət motivasiyalar artmış, insanların problemlərinin həlli onların iqtisadi fəallığını yüksəltmiş və ümumilikdə ölkədə insan kapitalının inkişaf etməsi proseslərinə əlavə impuls verilmişdir. Şübhəsiz, bu proseslərdə əhalinin yoxsulluq səviyyəsinin azaldılması tədbirləri və xüsusilə, işsizlik səviyyəsinin aşağı salınması, yeni proqramların və konsepsiyaların, layihələrin hazırlanması, özünəməşğulluq tədbirlərinin əhatəsinin genişləndirilməsi, məşğulluq problemlərinin həllinə yönəldilmiş iri layihənin – DOST layihəsinin icrasına başlandığı andan uğurlu olması və s. amillər də ölkəmizdə insan kapitalının formalaşması və ondan istifadənin modelləşdirilməsi proseslərinin səmərəli təşkili üçün əsaslı zəmin yaratmaqdadır.

Qeyd edək ki, ölkəmizdə insan kapitalının inkişaf proseslərdə yoxsulluq və işsizliyin səviyyəsinin azaldılması strateji əhəmiyyət kəsb edir. Azərbaycanda yoxsulluğun və işsizliyin səviyyəsi barəsində təhlillər Şəkil 3-də verilmişdir.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Şəkil 3.**

**Azərbaycanda yoxsulluğun və işsizliyin səviyyəsi (%)**




Mənbə: ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır - https://www.stat.gov.az).

Şəkil 3-də 2005-2018-ci illərdə Azərbaycanda yoxsulluğun və işsizliyin səviyyəsi müqayisəli şəkildə təhlil olunmuşdur və buradan göründüyü kimi 2005-ci ildə yoxsulluğun səviyyəsi 6 % olmuşdursa, 2015-ci ildə həmin göstərici 4,9 %-ə qədər aşağı düşmüş, 2018-ci ildə isə bu göstərici 5,1 % səviyyəsində olmuşdur. İşsizliyin səviyyəsi isə 2005-ci ildə 7,3 %, 2015-ci ildə 5 % və 2018-ci ildə isə 4,9 % təşkil etmişdir [1]. Şəkil 4-də Azərbaycanda 2018-ci ildə məşğul əhalinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü verilmişdir.



**Şəkil 4.**

**Azərbaycanda məşğul əhalinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü (2018, %)**




Mənbə: ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır - https://www.stat.gov.az.

Şəkil 4-dən yanaşdıqda 2018-ci ildə ölkəmzidə məşğul əhalinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsündə kənd təsərrüfatı sektorunun 36 % payı, ticarət və nəqliyyat vasitələrinin təmiri sektorunun 15 %, tikinti sektorunun 7 %, emal sənayesinin 5 % və s. payı vardır. Şəkil 5-də 2005-2017-ci illərdə Azərbaycanda ümumi milli gəlirin adambaşına dinamikası baxılmışdır. Şəkil 5-dən təhlilindən baxsaq, həmin dövr ərzində adambaşına düşən milli gəlirin həcmi 5,2 dəfə artmış və 2017-ci ildə 6928,1 manat təşkil etmişdir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Şəkil 5.**

**Azərbaycanda ümumi milli gəlirin adambaşına dinamikası (manat)**




Mənbə: ARDSK-nın məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır - https://www.stat.gov.az.

**Nəticə**

Dünya iqtisadi prosesləri yeni inkişaf fazasına keçdikcə, mövcud mexanizmlər əhəmiyyətli səviyyədə deformasiyalara uğrayır və bu səbəbdən daha təkmilləşdirilmiş mexanizmlərin və alətlərin hazırlanması, tətbiq olunması obyektiv zərurət kimi ortaya çıxır. Bunlarla əlaqədar olaraq, iqtisadi inkişaf proseslərinin aparıcı və təkanverici qüvvəsi olan insan kapitalından istifadənin yeni çağırışlar və tələblər çərçivəsində modelləşdirilməsi vacib şərtlərdən biri kimi ön plana keçir və bu qanunauyğunluğun, xüsusiyyətlərin nəzərə alınması vacibdir:

- İnsan kapitalından istifadənin modelləşdirilməsi məsələlərində xüsusi önəm kəsb edən problemlərdən biri də bu sahədəki baş verən proseslərin obyektiv qiymətləndirilməli və dərindən öyrənilərək dəyərləndirilməlidir;
- Qlobal iqtisadi təsirin güclənməsi, milli iqtisadiyyatlara münasibətdə qlobal iqtisadi təhlükələrin miqyasının və sərhədinin genişlənməsi, artması bütün milli resurslardan milli iqtisadiyyatın immunitetinin artırılması üçün daha səmərəli istifadə üzrə fəaliyyət proqramları və iri layihələr hazırlanaraq həyata keçirilməlidir;
- İnsan kapitalının formalaşdırılması və inkişaf etdirilməsi üçün təhsilə qoyulan investisiyaların artırılması, insanların fiziki və əqli sağlamlıqlarının təmin olunması üçün səhiyyə sisteminin maddi-texniki bazasının gücləndirilməsi, yaşayış səviyyəsinin və mənzil şəraitinin yaxşılaşdırılması problemləri daha intensiv həll olunmalıdır;
- Ölkəmizdə insan kapitalından səmərəli istifadənin modelləşdirilməsi və daha optimal reallaşdırılması istiqamətində uzun dövrü əhatə edən, məsələn, 2020-2050-ci ilədək olan dövr üçün "Azərbaycanda insan kapitalının inkişaf etdirilməsi və ondan səmərəli istifadə olunması üzrə Milli Strategiya"nın hazırlanması və həyata keçirilməsinə başlanılmalıdır.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

## Ədəbiyyat


1. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə, 2019.
2. Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2012-cı il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir
3. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir
4. Əliyev Ş.T. Azərbaycan iqisadiyyatı. Sumqayıt. SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018.
5. İnsan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası. Azərbaycan Respubliklası İqtisadiyyat Nazirliyi, İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu. Bakı - 2017.
6. Вишневская Н. Г., Ядигаров Р. Ф. Индекс развития человеческого потенциала как показатель уровня жизни населения//Молодой ученый, №1, 2014. с. 351-352.
7. Гапонова С.Н., Ильин А.Б. Повышение эффективности человеческого капитала за счет совершенствования механизмов управления. Журнал «Науковедение», том 7, №7, 2015. с.1-11.
8. Голованова Е.Н. Формирование модели эффективного использования инвестиций в человеческий капитал организаций. Дисс. канд. экон. наук. 2008. Нижний Новгород.
9. Доклад о человеческом развитии. UNDP. http://hdr.undp.org.
10. Кокуйцева Т.В. Тенденции и перспективы развития человеческого капитала в России // Креативная экономика. 2014.Том 8. № 10.
11. Меланьина М.В. Роль человеческого капитала в формировании экономики. знаний//Альманах современной науки и образования, Грамота, №7(71), 2013. с.123-124.
12. Петрова Е.А. Особенности формирования и использования человеческого капитала в процессе информатизации//Фундаментальные исследования, №11, 2006.
13. Сахаровский С.Н. Институциональные факторы формирования человеческого потенциала. Journal of institutional studies (Журнал институциональных исследований). Том 4, №2. 2012 - С.83-92.
14. Яхницкая, Н. А. Факторы эффективности использования человеческого капитала. Вестник Белорусского государственного экономического университета. 2011. N 2.




***Логман Имран оглу Абдуллаев***

***Особенности и оценка подходов к моделированию использования человеческого капитала***

***Резюме***

*В статье исследованы особенности и оценка подходов к моделированию использования человеческого капитала. С этой целью анализировано формирование и процессы развития человеческого капитала в условиях глобальных экономических вызовов. Отмечена важность моделирования формирования и развития человеческого капитала, обоснована необходимость стратегических подходов к созданию благоприятных условий и соответствующей инфраструктуры для устойчивости основных компонентов с учетом современных особенностей человеческого капитала. Особое внимание уделено глубокому изучению и моделированию максимально эффективного использования человеческого капитала в контексте мирового опыта. Систематизированы и обобщены основные элементы в процессах*

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

*формирования человеческого капитала. Отмечена важность объективной оценки особенностей подходов к проблемам эффективной организации использования человеческого капитала. Обращено внимание на расширение мероприятий по формированию и развитию человеческого капитала в нынешних условиях. Обусловлена системная организация оценки и учета важности факторов, существенно влияющих на процессы использования человеческого капитала. Анализированы социально-экономические показатели, отражающие важные аспекты формирования и использования человеческого капитала в Азербайджане. Обоснована необходимость обновления основных механизмов государственной политики в совершенствовании механизмов использования человеческого капитала. Подготовлены рекомендации и даны предложения по особенностям и оценке подходов к моделированию использования человеческого капитала.*

***Ключевые слова:*** *человеческий капитал, моделирование человеческого капитала, особенности человеческого капитала, формирование человеческого капитала, оценка человеческого капитала, развитие человеческого капитала, современные аспекты использования человеческого капитала, перспективы развития человеческого капитала.*

***Logman Imran Abdullayev***

***Features and evaluation of approaches to modelling the use of human capital***

***Resume***

*The features and evaluation of approaches to modelling the use of human capital are explored in the article. The formation and processes of human capital development in the global economic challenges are analysed for this purpose. The importance of modeling the formation and development of human capital is noted, the need for strategic approaches to creating an enabling environment and appropriate infrastructure for the sustainability of the main components taking into account the modern characteristics of human capital is justified. Special attention to the in-depth study and modelling of the maximum effective use of human capital in the context of world experience is paid. The main elements in the processes of human capital formation are systematized then. The importance of objective assessment of the peculiarities of approaches to the problems of effective organization of human capital use is noted too. Attention to the expansion of activities for the formation and development of human capital under the current conditions is paid. The systematic organization of assessment and consideration of the importance of factors that significantly influence the processes of use of human capital is investigated. Socio-economic indicators reflecting important aspects of formation and use of human capital in Azerbaijan are analyzed. The need to update the main mechanisms of public policy in improving the mechanisms for the use of human capital is justified. Recommendations and proposals on features and evaluation of approaches to modelling the use of human capital are given in the end of the article.*

***Keywords:*** *human capital, modeling of human capital, peculiarities of human capital, formation of human capital, evaluation of human capital, development of human capital, modern aspects of human capital use, prospects of human capital development.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 07.10.2019.***
***Çapa qəbul olunub: 10.10.2019.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*